## Bəşəriyyət əcdadını axtarır

Türkiyədə nəşr olunan «Haber Tütk» qəzetinin yazdığına görə, Keniyada arxeoloji qazıntılar zamanı kəşf edilən insan kəlləsinin yeni bir qalığının, bizim tanıdığımızdan fərqli insan növünə aid ola biləcəyi açıqlanmışdır. Bu yeni tapıntı insan təkamülünün formalaşmasına yeni bir tarix əlavə edə bilər.

Mütəxəssislərin «Homo Floresiensis» adı verdikləri bu məxluqun ən nəzərə çarpan cəhəti yastı sifətə sahib olmasıdır. Arxeoloqların fikrincə, meymunabənzər bir skelet quruluşu olan «Floresiensis» ailəsinin mənsublarının əksəriyyəti otyeyən olmuşdur. Antropoloqlar, bu iddialara dəlil olaraq kəllə skeletinin diş quruluşuna əsaslanırlar. Qalıqları əldə edilmiş məxluqların ağızlarının quruluşunun ortaq xüsusiyyəti kiçik kəsici dişlər yerinə, iri çeynəmə dişlərinin mövcudluğudur. Bu insan növlərinin Afrikada 2.5 milyon il bundan əvvəl yarandığı ehtimal olunur.

Əsrin əvvəllərində ən qədim əcdadımızın «dik duran insan» mənasını verən «Homo Erectus» olduğu güman edilirdi. Ancaq 50 il əvvəl daha qədim bir növ - «Homo Habilis» kəşf edildi və bu ehtimal qüvvədən düşdü. 2007 və 2009-cu ildə Keniyanın şimalında tapılan yeni «Homo Floresiensis»in qalıqları insanlığın tarixinin 1,78 - 1,95 milyon ilə çatdığı ehtimalını yaradır...